https://doi.org/10.59849/3006-2403.2024.1.130
**UOT: 394**

***Tahir ŞAHBAZOV***
***Tarix üzrə fəlsəfə doktoru, dosent***
***AMEA Tarix və Etnologiya İnstitutu***
***E-mail: tshahbazov.65@gmail.com***

# NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA SARAY VƏ SARAY MƏİŞƏTİNİN TƏSVİRİ

*Açar sözlər:* Nizami Gəncəvi, saray məişəti, münəccim, Xosrov, İsgəndər

*Giriş*

Orta əsrlər dövrünün məişət və mədəniyyətinin etnoqrafik tədqiqi baxımından şair və yazıçıların əsərləri çox dəyərli mənbə kimi çıxış edir. Bu baxımdan dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin yaradıcılığı xüsusilə böyük əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, onilliklərdən bəri istər Azərbaycanda, istərsə də Azərbaycandan kənarda Nizami Gəncəvi yaradıcılığının ən müxtəlif, o cümlədən etnoqrafik aspektlərinə dair çox sayda dissertasiyalar yazılmış, kitab, monoqrafiya və məqalələr çap olunmuşdur. Lakin böyük şairin yaradıcılığında hələ də öyrənilməyən məsələlər var ki, onlardan biri də orta əsrlər dövrünün saray məişətidir. Belə ki, Nizami xalq məişəti qədər saray məişətinə də yaxından bələd olmuş və onun əsas cəhətlərini dramatik bədii səhnələr, sətiraltı ifadələr və xarakterlərin qarşılaşdırılması yolu ilə göstərməyə çalışmışdır.

Nizami dövrünün saray məişətinin səciyyəvi xüsusiyyətləri haqqında danışarkən ilk növbədə o dövrün ictimai-siyasi mənzərəsi ilə tanış olmaq lazımdır. Bəri başdan deyək ki, şairin "Xəmsə" adı ilə şöhrətlənən poemalarının ideya məzmunundan görünür ki, həmin mənzərə heç də ürəkaçan olmamışdır. Böyük mütəfəkkirin yeri gəldikcə Hörmüz, Məhin Banu və Şirin kimi müsbət şah obrazlarını yaratması, yeri gəldikcə isə Xosrov və Bəhram kimi bu obrazların əks qütbündə dayanan şahları "tərbiyələndirərək", onları humanizmə, ölkəni ədalətlə idarə etməyə istiqamətləndirmək cəhdləri də bunu təsdiqləyir. Tədqiqatçılar bu üslubu Nizaminin "ədalətli şah" axtarışları, əsərlərinin bədii qüdrəti ilə zalım, səriştəsiz və rəhmsiz şahları islah etmək istəyi, firavan cəmiyyət arzuları ilə izah etsələr də [1, s. 12-13], arxa planda dövrün siyasi, iqtisadi və sosial reallıqları çox aydın görünür. Belə ki, əgər şair "ədalətli" və "mərhəmətli" şah axtarışına çıxırsa, deməli ölkədə ədalətsizlik və zülm, saraylardakı eyş-işrətdən, şahların, şahzadələrin və əyanların zəngin, dəbdəbəli həyatından bəhs edirsə, deməli ölkədə aclıq, yoxsulluq, səfalət və dərəbəylik hökm sürmüşdür. Bu səhnə "Sirlər xəzinəsi" poemasında - "Bayquşların söhbəti"ndə daha aydın nəzərə çarpır. Həmin söhbətdən məlum olur ki, Nuşirəvan şahın səriştəsizliyi və yanlış siyasəti üzündən ölkənin çox şəhər və kəndləri xarabalığa çevrilmiş və belə xarabalıqların sayı hər gün artır [2, s. 13]. Əhvalat tarixi xronologiya ilə Sasani hökmdarları dövrünə aid olsa da, söhbətin həm də Nizami dövrünün reallıqlarından getdiyi heç bir şübhə doğurmur.

**Saray, saray iyerarxiyası və saray həyat tərzi haqqında.**

Nizami Gəncəvinin əhalisinin çoxunun yoxsulluq içində yaşadığı bir məmləkətdə şahların və əyanların keyf-damaq içində həyat sürdüyü sarayların dəbdəbəsi, saray əyanlarının geyimləri və saray iyerarxiyası kimi məsələlərlə bağlı verdiyi təsvirlər xüsusilə diqqəti cəlb edir. Məsələn, şairin "Xosrov və Şirin"də Xosrov Pərviz sarayı belə təqdim olunur:

Xosrovdan, Şirindən qalan yadigar,
Gizlində deyildir, durur aşikar.

Səbdüz atın şəkli, Bisütun dağı,
Pərviz sarayının eyvanı, tağı.
Zavallı Fərhadın sönən arzusu,
O Şahrud, o çöldə axan gözəl su.
O qəsri-Şirinə gedən süd çayı,
Xosrovun ovlağı, zəngin sarayı... [3, s. 49-50].

Poemanın Şapurla Şirinin söhbəti zamanı isə şahzadə Xosrovun timsalında saray əyanlarının bahalı parçalardan tikilən və qiymətli daş-qaşlarla bəzədilən geyim dəsti geyindikləri, hətta atlarının nallarının belə qızıldan olduğu məlum olur:

Xosrovun köhləni qızıl nallıdır,
Paltarı daş-qaşlı, cah-cəlallıdır.
Papağı, donu ləl, kəməri ləldir,
Üzü ləl, üstü ləl, özü gözəldir... [3, s. 82].

Düşünürük ki, sözügedən epizod sadəcə bir bədii təsvir səhnəsi olmayıb, feodal cəmiyyətinin sosial ziddiyyətlərini, sosial fərqləri və hakimiyyətlə xalq arasında dərin bir uçurumun olduğunu diqqətə çatdırmaq məqsədi ilə Nizami tərəfindən ortaya qoyulan çox ciddi tarixi faktdır.

Saray iyerarxiyası da bütün Şərq saraylarında olduğu kimi, burada da şah, vəzir-vəkil və əyanlardan ibarət olmuşdur. Eyni zamanda, şah və əyanların övladlarının təlim-tərbiyəsi ilə məşğul olan mürəbbiyyələr, münəccimlər, alim, şair, həkim, musiqiçilər və b. da saray mühitinin ən önəmli fiqurlarından sayılırdı. Nizaminin "Xosrov və Şirin" poemasının əsas qəhrəmanlarından olan Xosrov məhz belə bir saray mühitində dünyaya gəlmiş, tərbiyələnmiş, böyümüş və şahlıq məqamına yüksəlmişdir:

Günləri boş-bekar keçməsin deyə,
Şah tapşırdı onu bir mürəbbiyyə...
Az müddətdə dərya bilik qazandı,
Hər fənni düşündü, hər elmi qandı.
Qafil ürəyində bilik yol açdı,
Şahlıq rütbəsinə gəlib yanaşdı [3, s. 56-57].

"İsgəndərnamə" poemasındakı Bəhram da dəbdəbəli saray mühitində, böyük alimlərin, filosofların himayəsində və əhatəsində böyümüş, bir çox elmlərin sirlərinə vaqif olmuş və formalaşmışdır: Münzir ona mükəmməl təhsil vermiş, Neman isə qılınc oynatmağı, ox atmağı və savaşmağı öyrətmişdir:

Bir neçə ildi ki, uca qalada,
Bəslənib dururdu bizim şahzadə.
Münzir onu bilik sahibi etdi,
Neman ox atmağı ona öyrətdi.
O, belə boy atıb namidar oldu,
Şöhrəti göydə də aşikar oldu [4, s. 60-62].

Eyni fikirləri Nizaminin "dünya fatehi" kimi təqdim etdiyi Böyük İsgəndər haqqında da demək mümkündür:

Niqumaş alimdi, biliklə dolu,
Alimin oğluydu həkim Ərəstu.
Təlim işlərində çəkdi çox əmək,
Hikmətlər öyrətdi ona, sevərək.

Çatdırdı onu hər gizlin biliyə,
Hansı bir gənc almış belə tərbiyə?
Şahzadə illərlə çox çalışdı, çox,
Qulağı elm aldı, başqa heç nə yox... [1, s. 69-70].

Şahların uğurlu ov və səfər günlərinin (hətta saatlarının) təyin edilməsi, müharibə və ya sülh kimi məsələlər, hətta qabaqlayıcı tədbirlər görmək üçün təbiət hadisələrinin (zəlzələlərin, günəş və ay tutulmalarının və s.) vaxtında proqnozlaşdırmaq vəzifəsi isə saray münəccimlərinin üzərinə düşürdü. Daha dəqiq desək, hökmdarların istər şəxsi həyatı, istərsə də qəbul etdiyi siyasi qərarlar dolayısı ilə münəccimlərin "uğurlu" fəaliyyətinə bağlanırdı. Yeri gəlmişkən xatırladaq ki, tarixdə bu vəzifələrinin öhdəsindən layiqincə gələ bilməyən münəccimlərin acınacaqlı taleyi, yaxud da zahirən gülməli, əslində isə faciəli vəziyyətə düşdükləri ilə bağlı çoxlu nümunələr vardır. Misal üçün, e.ə. 2136-cı ildə Çin imperatorunun sarayındakı münəccimlər – Xi və Xo günəş tutulmasını qabaqcadan xəbər verə bilmədiklərinə görə imperator tərəfindən edam etdirilmişdilər [6, s. 105].

Yaxud, böyük dramaturq M.F.Axundovun "Aldanmış kəvakib"ində münəccimbaşının "novruzdan 15 gün keçmiş ulduzların toqquşacağı və bu toqquşma zamanı şaha xətər toxunacağı" ilə bağlı xəbəri Şah Abbası əməlli-başlı qorxudur. Bu qorxu o qədər böyük olur ki, o, hətta hakimiyyətin müəyyən müddətə hansısa "kafirə", indiki halda Yusif Sərraca verilməsinə belə razılaşır. O Yusif Sərrac ki, qısa müddətdə xaraba qalmış ölkədə çox böyük abadlıq və quruculuq işləri görərək, xalqın dərin sevgisini qazanır[3].

Nizaminin də əsərlərində münəccimlər şah saraylarının ən önəmli fiqurlarındandır. "İsgəndərnamə" poemasında görürük ki, onlar "ulduzların köməyi ilə" hələ ana bətnində olan İsgəndərin taleyi ilə bağlı "proqnoz" verir, onun gələcək fəthlərini müjdələyirlər:

Padşah əmr etdi ki, münəccimlər
Baxıb ulduzlara versinlər xəbər.
Taleyi göründü nurdan da parlaq,
Nə deyim, o yaman gözlərdən iraq.
Belə xoş fal ilə dünyaya gəldi,
O bağda belə bir fidan yüksəldi.
Təqvimdən bəxtini təyin etdilər,
Qoyuldu uşağın adı İskəndər [1, s. 68-69].

Və yaxud;
Dünyanı alacaq böyük İskəndər?
Daranı əzərək çalacaq zəfər?"
O faldan qeysərin coşdu ürəyi,
Fal onun dağ kimi oldu köməyi [1, s. 108-109].

Orta əsrlər saray məişətinin əsas xüsusiyyətlərindən biri vaxtaşırı təşkil edilən ov əyləncələri, şəhər meydanında keçirilən tamaşalar və idman yarışları idi. Başqa sözlə desək, ölkədəki problemləri, xalqın ağır sosial-iqtisadi vəziyyətini nəzərə almayan şah və onun əyanları, günlərinin çox hissəsini belə əyləncələrə həsr edir, eyş-işrətlə məşğul olurdular. Bunumla bağlı şairin "Xosrov və Şirin" poemasından oxuyuruq:

Günlərin bir günü bir səhər erkən,
Xosrov çıxdı çölə könlü xeyli şən.

---
[3] Bax: Axundov Mirzə Fətəli. Aldanmış kəvakib //Əsərləri, 2 cilddə, birinci cild, Bakı, Atilla, 2000

Ovladı, quşladı, çox atdı kəmənd,
Göründü uzaqdan səfalı bir kənd.
Şahzadə o kənddə bir ev istədi,
Bir məclis düzəlsin kef edək, - dedi.
Əyləşib işrətə yoldaşlarilə,
Açdılar səhəri, əldə piyalə.
Ərgənun çaldırıb, qulaq asdılar,
Ərgəvan mey içib oldular xumar [3, s. 58-59].

Poemanın başqa bir yerində isə şəhər meydanında Xosrov və Şirinin şərəfinə təşkil olunmuş oyun-tamaşalar haqqında məlumat verilir:

Bir yanda durmuşdu ayla ulduzlar,
Şah, əyan tutmuşdu bir yanda qərar.
Meydanda maralla oynayırdı şir,
Turac qaraquşu alırdı əsir,
Gah günəş vururdu topu, gah da ay,
Şirinlə şah düzə salmışdı haray.
Çövkan oyunundan artıq bezdilər,
Meydan ətrafını sürüb gəzdilər... [3, s. 121].

Onu da qeyd etməliyik ki, belə məclislər əksər hallarda sadə və halal zəhmətlə yaşayan insanlara baha başa gəlirdi. Elə yuxarıda bəhs etdiyimiz süjetin davamında görürük ki, Xosrov və əyanların bu keyf məclisi də kənd camaatının rahatlığını pozmuş, onların əkin sahələrinə, bağ-bağçalarına böyük ziyan vermişdir [3, s. 59].

Nizaminin digər qəhrəmanı - Böyük İsgəndərin də saray həyatı eyş-işrətsiz, mey-məzəsiz keçməmişdir:

Şahların taxtına bəzək verənlər
Belə nəql edir ki, böyük İskəndər
Bir gün dincəlirdi ürəyi çox şən,
Uzaqdı dünyanın həvəslərindən.
Saf, duru şərabla şahlıq camını
Doldurur, boşaldır, alır kamını.
Çalğıdan, şərabdan, incə nəğmədən
Yarım sərxoş idi içən, dinləyən... [1, s. 115].

Və yaxud;
Ərəstu qədəhə, Əflatun cama
Təzə mey tökürdü qan dama-dama.
Şanlı bir zəfərlə dönmüşdü qeysər,
Xanəndə oxuyur yeni nəğmələr... [1, s. 106].

Burada şairin xanəndədən bəhs etməsi heç də təsadüfi deyildir. Çünki, yuxarıda qeyd etdiyimiz kimi, alim-üləmalar, həkimlər, münəccim və şairlərlə yanaşı, musiqiçilər də şah saraylarında böyük hörmətə və diqqətə sahib idilər. Saray təntənələri, şahların və əyanların keyf məclisləri, eləcə də bayramlar musiqisiz keçirilmirdi. Məmləkətin harasında olursa-olsun, kamil bir musiqi ifaçısının adını eşidərdilərsə, onu tapıb saraya gətirir, yaşayıb-yaratmasına şərait yaradırdılar. Bu baxımdan, bütün mənfi cəhətləri ilə yanaşı, saray şeir və musiqi məclislərinin mədəniyyətinin inkişafında oynadığı mühüm rolu da qeyd etmək lazımdır.

Belə musiqiçilərdən biri də “Xosrov və Şirin”dəki Barbəddir. Nizami Barbədin yüz musiqi nümunəsini mükəmməl bildiyini qeyd etməklə yanaşı, otuza qədər musiqi alətinin (təbil, şeypur, fəğanə - çoğanə, ud, setar, saz, rübab, bərbəd, cəng, ərqənun - kanon, rud və s.) də adını çəkir ki, onlar da müasir dövrdə muğamlarımızın ayrılmaz tərkib hissələri hesab edilən təsniflərin, rənglərin, dəramədlərin, müqəddimələrin və s. ilkin əsasları olmuşdur. Xosrov dərdli günlərində, pərişan olanda, eyni zamanda keyf-damaq məclislərində məhz Barbədə qulaq asır, onun şux ifalarını dinləyir:

Sərxoş bülbül kimi gələndə Barbəd,
Su kimi axırdı əlində bərbəd.
O, çala bildiyi yüz xoş nəğmədən,
Seçdi otuzunu özü bəyənən.
Bu otuz nəğmə ki, Barbəd çalırdı,
Gah ürək verirdi, gah can alırdı.
Bir-birindən gözəl bu nəğmələrə,
“Əhsən! Əhsən!” dedi yüz kərə.
Xosrovun belə bir adəti vardı,
“Əhsən” deyən zaman qızıl atardı.
Barbədin çaldığı hər bir pərdəyə,
Şah tamam bir xəznə etdi hədiyyə [3, s. 167-169].

**Saray əxlaqının təsviri**

“Saray əxlaqı” və ya Orta əsrlər şah saraylarındakı “nikah düzəni” də Nizaminin diqqətindən kənarda qalmamışdır. Belə ki, poliqam nikah formasının – çoxarvadlılığın geniş yayılması nəticə etibarilə saraylarda hərəmxanaların meydana gəlməsinə gətirib çıxarmışdı. Başqa sözlə desək, hərəmxanalar az qala şah saraylarının bir struktur elementinə çevrilmişdi. Şahların şəhvət həvəsi, bir çox hallarda da diplomatik vasitə kimi dövlətlərarası münasibətləri nizama salmaq ehtiyacı çoxarvadlılığa rəvac verirdi.

Şairin “Yeddi gözəl” poemasının baş qəhrəmanı Bəhram şahın da hərəmxanası vardır. Lakin bu hərəmxana öz forması və məzmunu etibarilə bir qədər fərqlidir. Belə ki, uzun illər Yəməndə - Xəvərənqdə şəklini gördüyü yeddi gözəl qızın xəyalı ilə yaşayan Bəhram, taxta qurulduqdan sonra dünyanın yeddi ölkəsindən yeddi gözəl qız gətirdib, onların hər biri üçün ayrıca yeddi rəngdə saray inşa etdirir. O, gedəcəyi sarayın rəngində libas geyinərək, həftənin hər gününü bir gözəlin yanında keçirir, onların nağıllarına qulaq asır və eyş-işrətlə məşğul olur:

Yeddi el şahından bu qayda ilə,
Bəhram sahib oldu yeddi gözələ.
Daldı işrətlərə, könlü oldu şad,
Həyatdan gəncliyi aldı nəşə, dad [4, s. 119].

Çalışdı, çarpışdı, göstərib hünər,
Yeddi günbəd tikdi – hər yanı gövhər.
Taleyi, görkəmi hər bir günbədin,
Parlaq şahidiydi kəsilmiş şərtin [4, s. 125].

Gündə bir gözəllə söhbət edərdi,
Gündə bir günbədə varıb gedərdi.
Gündə bir otaqda o sahibkamal,
Məclis düzəldərək qurdu cah-calal.

Harada keyf edib, içib yeyərdi,
Haman ev rəngində paltar geyərdi [4, s. 127].

Beləliklə də, başı eyş-işrətə, meyə, şəraba qarışan şah dövlət idarəçiliyindən uzaqlaşır və bu işi Raştü-Rövşən adlı vəzirinə həvalə edir. Əsil fəlakət də elə bundan sonra başlayır. Nizaminin təsvirində acgözlüyün, zülmün, şərin, əxlaqsızlığın və xəyanətin timsalı olan bu vəzir ölkəni var-yoxdan çıxarır, belə demək mümkünsə, xarabazara çevirir:

Şah könül verdikcə naza-nemətə,
Vəzir də əl atdı zülmə, zillətə.
Zülmün atəşinə canlar qalandı,
Ocaqlar talandı, evlər talandı.
Ellər həsrət qaldı dövlətə, vara,
Rastü-Rövşən aldı rüşvət aşkara.
Məmləkət döndükcə xarabazara,
Xəznə həsrət qaldı gəlirə, vara.
Vəzirinsə evi xəzanə oldu,
Aləm başdan-başa viranə oldu... [4, s. 256-267]

Bəhram şahın ölkəsində mövcud olan bu acınacaqlı vəziyyət və xalqın getdikcə artan narazılığı Çin xaqanının yenidən onun üzərinə hücuma keçməyə sövq edir. Baş verənlərin səbəbini anlamaqda çətinlik çəkən Bəhram dərdini dağıtmaq üçün ova çıxır. Bu zaman bir çobanın, qurdla dostluq bina edən iti ilə bağlı nəql etdiyi əhvalat sanki Bəhramı qəflət yuxusundan ayıldır və o, saraya qayıdıb ona və dövlətə xəyanət yolunu tutmuş Rastü-Rövşəni edam etdirir.

Sadə xalqın yoxsul həyatı fonunda, şahların və əyanların keyfli həyat tərzi və var-dövlətə aludəçiliyi istər-istəməz onlarda bütün müşkülləri pul və qızılla həll edə bilmək kimi zərərli "instinkt"in meydana gəlməsinə səbəb olurdu ki, bu da sosial həyatda olduğu kimi, əxlaqi və mənəvi-psixoloji müstəvidə də problemlər yaradırdı. Başqa sözlə desək, saf eşqə bir əyləncə, qadına isə satılıq mal və ya əşya münasibəti saray mühitində əxlaqi pozğunluğa yol açırdı. Bu cür davranış nümunəsi Leylinin dərdindən "Məcnun" olub çöllərə düşən Qeysin atasının Leylini istəməsi səhnəsində aydın görünür:

Sən özün bilirsən, bilir bu aləm,
Zamanın ən məşhur adamı mənəm.
Mənim xəzinəm də, cəlalım da var,
Dosta, düşmənə də qüdrətim çatar.
Ağlın başındasa, mətaini aç,
Almağa gəlmişəm, sən də əl uzat.
Nə qədər olsa da onun qiyməti,
Almağa hazıram mən o zinəti.
Sən onu satmağa vergilən qərar,
Dünyada hər şeyin öz bazarı var...[5, s. 75-76].

Sözügedən poemada "İt saxlayan padşah" hekayəti isə "saray ədalətinin" və mənəviyyatının başqa bir nümunəsidir. Burada on il şaha sədaqətlə xidmət edən gəncin daha sonra elə şahın özü tərəfindən quduz itlərə yem edilməsi səhnəsi bəzi tədqiqatçılar tərəfindən əsərin süjet xəttinə əlavə kimi qiymətləndirilsə də, əslində Nizami dönəminin hökmdar – rəiyyət və insan – cəmiyyət münasibətlərinin əyani təzahürüdür [5, s. 9-10]. Çox güman ki, şair mövcud reallıqları nəzərə alıb, sözügedən epizodu əsərin ana süjetindən kənar bir əhvalat formasında təqdim etməyə məcbur olmuşdur.

"Xosrov və Şirin" poemasında Fərhadın Şirini sevməsi xəbərini eşidən Xosrovun Fərhadı aradan götürmək məqsədi ilə əyanlarla birlikdə təşkil etdiyi tələ isə saray məişətində hökm sürən mənəvi-əxlaqi pozğunluğun başqa bir təzahürüdür:

Bu dəli (Fərhad – T.Ş.) haqqında belədir tədbir,
Ona dəmir deyil, vur qızıl zəncir.
Sevdanın dərmanı qızıldır, qızıl,
Qızılla dərdinə onun çarə qıl.
Əvvəl çağır onu, ona ümid ver,
Başına qızıl səp, səxavət göstər.
Yar nədir, dindən də azar yolunu,
Ayırar Şirindən bu şirin onu [3, s. 192].

Məkrli bir hiylənin sonunda Fərhadın ölümü, bundan sonra Xosrovun yenidən Şirinə eşq elan etməsi və Şirinin Xosrova kəskin cavabı isə saray mənəviyyatını bütün çılpaqlığı ilə açıb göstərən "klassik" bir nümunə sayıla bilər:

Görməmişəm səndən bir mehribanlıq,
Görmüşəm təkəbbür, cəfa, yamanlıq.
Öz istəklərinin dalınca getmək,
Qeyrinin üzünə qapı bərkitmək –
Bu sevgi deyildir, şəhvətdir ancaq,
Sən hara, eşq hara, bir diqqətlə bax [3, s. 257].

*Nəticə*

Beləliklə, deyilənlərə yekun vurub belə bir nəticəyə gəlmək olur ki, Nizami Gəncəvi yaradıcılığını xalq məişəti və mədəniyyəti ilə yanaşı, sözün tam mənasında Orta əsrlər saray məişətinin də güzgüsü hesab etmək olar, hansı ki, saray məişətinə xas olan bütün cəhətlər - mənəvi-əxlaqi qüsurlar, zorakı idarəçilik metodları, milli və dini dəyərlərə etinasızlıq, xalqın taleyinə biganəlik, xəyanət, sosial ziddiyyətlər və s. həmin güzgüdə çox aydın görünür. Belə bir mürəkkəb sosial-siyasi, mədəni və mənəvi mühitdə şair tərəfindən "tərbiyələndirilib", "ədalətli hökmdar" cildinə salınan şah obrazları isə tarixi reallıq deyil, zülmün və zalımın olmadığı, qanun və ədalətlə idarə edilən, hamının bərabər yaşadığı firavan, demokratik dövlət və cəmiyyətlə bağlı Nizami Gəncəvinin siyasi-fəlsəfi görüşlərinin məhsuludur.

ƏDƏBİYYAT

1. Nizami Gəncəvi. İsgəndərnamə. Bakı, Lider, 2004, 432 s.
2. Nizami Gəncəvi. Sirlər xəzinəsi, Bakı, Lider, 2004, 264 s.
3. Nizami Gəncəvi. Xosrov və Şirin, Bakı, Lider, 2004, 392 s.
4. Nizami Gəncəvi. Yeddi gözəl, Bakı, Lider, 2004, 336 s.
5. Nizami Gəncəvi. Leyli və Məcnun. Bakı, Lider, 2004, 288 s.
6. Мифы народов мира. Т. I, М:, Советская энциклопедия, 1980, 720 с.

**Тахир ШАХБАЗОВ**
**Доктор философии по истории**

**ОПИСАНИЕ ДВОРЦА И ДВОРЦОВОГО БЫТА В ТВОРЧЕСТВЕ НИЗАМИ ГЯНДЖЕВИ**
***РЕЗЮМЕ***

*Ключевые слова:* Низами Гянджеви, дворцовый быт, астролог, Хосров, Александр

Одним из основных источников, с точки зрения этнографического изучения быта и культуры средневековья являются труды Низами Гянджеви. Неслучайно на протяжении несколько десятилетий как в Азербайджане, так и за рубежом написано множество диссертаций, книг, монографий и статей по различным аспектам творчества Низами. Однако в трудах великого мыслителя все еще много неизученных, или малоизученных вопросов, одним из которых является дворцовый быт средневековья. По художественным описаниям и соотвествующим сравнениям в его произведениях очевидно, что он был хорошо знаком как с народным, так и с дворцовым бытом.

Представленная статья является попыткой определить сферу действия дворцового быта, его основные элементы и этнографические особенности на основе произведений Низами Гянджеви.

**Tahir SHAHBAZOV**
**Doktor of philisophy in history**

**DESCRIPTION OF PALACE AND PALACE LIFE IN NIZAMI GANJAVI'S CREATIVITY**
***SUMMARY***

*Key words:* Nizami Ganjavi, palace life, astrologer, Khosrov, Alexander

One of the most valuable sources in terms of ethnographic study of life and culture of the medieval ages is the creativity of Nizami Ganjavi. It is no coincidence that both in Azerbaijan and abroad over the decades, many dissertations have been written, books, monographs and articles on various aspects of Nizami's creativity have been published. However, there are many unexplored or little-studied issues in the works of the great thinker, one of which is the palace life of the medieval ages. It is clear from the works of the great poet that he was well acquainted with the palace life, as well as the life of the people, and made appropriate comparisons when necessary.

In the presented article we have tried to study the palace life, its main subjects and ethnographic features on the basis of Nizami Ganjavi's works.

***Daxil oldu: 29.04.2024-cü il***